# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏSAS VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI: MÜASİR VƏZİYYƏTİ


**Xülasə**

Müasir dövrdə Azərbaycan Respublikasında vətəndaş cəmiyyəti institutlarının formalaşması Dağlıq Qarabağ münaqişəsinin başlandığı və sovetlərin süqutu dövrünə təsadüf edir. Həmin dövrdə yaranmış “Qayğı”, “Qarabağa Xalq Yardımı Komitəsi” kimi vətəndaş cəmiyyəti təsisatları xalqın taleyüklü problemlərinin həllində yaxından iştirak edirdilər.

GHT-lərin ölkənin ictimai həyatında fəal iştirakının təmin edilməsi baxımından 1999-cu ildə Milli Qeyri-Hökumət Təşkilatları Forumunun və 2007-ci ildə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılmasının müstəsna əhəmiyyəti vardır. Məqalədə ümumilikdə siyasi partiyaların cəmiyyətdə tutduğu mövqe, siyasi maariflənmə və ictimai rəyin formalaşması işində rolu, Azərbaycanda dövlət tərəfindən onların fəaliyyəti üçün daha münasib şərait yaradılması məqsədi ilə qanunvericilik sənədlərinin qəbul oluması şərh olunur. Vətəndaş cəmiyyətinin digər bir struktur elementi olan dini icma və birliklərin sərbəst fəaliyyəti ölkə konsitutusiyasının vicdan azadlığı haqqında maddəsi ilə təsbit olunur. Dövlətin dini icma və birliklərlə bağlı siyasətinin əsas istiqaməti dini tolerantlığın



ULUSLARARASI TÜRK DÜNYASI ARAŞTIRMALARI DERGİSİ
INTERNATİONAL JOURNAL OF TURKISH WORLD STUDIES
CİLT 5 / SAYI 4 / EKİM 2022



**Sorumlu Yazar**
**Corresponding Author**

Zəfər ABDULLAYEV

Bakı Avrasiya Universiteti, Doktorant
zafarabdullayev2022@rambler.ru



**Gönderim Tarihi**
**Recieved**
04.08.2022

**Kabul Tarihi**
**Accepted**
20.09.2022

**Atıf**
ABDULLAYEV, Zəfər (2022). “Azərbaycan Respublikasında Əsas Vətəndaş Cəmiyyəti İnstitutları: Müasir Vəziyyəti”, *Uluslararası Türk Dünyası Araştırmaları Dergisi*, (5/4), 1-26.

ARAŞTIRMA MAKALESİ
RESEARCH ARTİCLE

gücləndirilməsi, mövcud dini konfessiyaların dəstəklənməsi və dini dəyərlərin qorunmasından ibarətdir. Ən geniş yayılmış vətəndaş cəmiyyəti institutlarından biri olan həmkarlar ittifaqlarının Azərbaycan cəmiyyətində social sabitliyi təmin edəcək bir struktur kimi rolu artmaqdadır. Öz üzvlərinin əmək hüquqlarını müdafiə edən həmkarlar ittifaqları əmək, sosial və iqtisadi məsələlər barəsində qanunvericilik aktlarının hazırlanmasında yaxından iştirak edirlər. Vətəndaş cəmiyyətinin əsas struktur elementlərindən biri də vətəndaşların geniş informasiya mənbələrinə çıxışını təmin edən qeyri-dövlət kütləvi informasiya vasitələri hesab edilir. Azərbaycanda dövlətin söz, fikir, informasiya azadlığı, həmcin kütləvi infőrmasiya vasitələrinin dəstəklənməsi istiqamətindəki tədbirləri cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində onların yaxından iştirakını təmin edir.

Müəllif məqalədə Azərbaycanda mövcud olan əsas vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti ilə bağlı məsələləri təhlil etmiş, dövlət hakimiyyətinin onların inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərə aydınlıq gətirməyə çalışmışdır.

**Açar sözlər:** Azərbaycan, vətəndaş cəmiyyəti, dövlət hakimiyyəti, müasir dövr.

## MAJOR CIVIL SOCIETY INSTITUTIONS IN THE REPUBLIC OF AZERBAIJAN: CURRENT SITUATION

### Abstract

The latest formation of civil society institutions in the Republic of Azerbaijan coincides with the beginning of the Nagorno-Karabakh conflict and the collapse of the Soviet Union. Civil society structures established at that time, such as "Gayghi", "Committee for People's Aid to Karabakh" etc. were closely involved in solving the fateful problems of the people.

The establishment of the National Non-Governmental Organizations Forum in 1999 and the Council of State Support to Non-Governmental Organizations in 2007 is important in terms of ensuring the active participation of NGOs in domestic public life. The article comments on the position of political parties in society in general, their role in the formation of political enlightenment and public opinion, the adoption of legislation by the state in Azerbaijan to create more favorable conditions for their activities. The free activity of religious communities and similar associations is enshrined in the country's constitution on freedom of conscience. The main direction of the state policy towards religious communities and associations is to strengthen religious tolerance, support existing religious denominations and protect religious values. The role of trade unions will ensure social stability in Azerbaijani society. Labor rights-friendly Trade Unions are

closely involved in drafting legislation on labor, social and economic issues. One of the main structural elements of civil society is the non-governmental media providing citizens with access to a wide range of sources. The official measures taken by Azerbaijan serves to support freedom of speech, opinion, information, and media ensuring their close participation in addressing society-prioritized issues.

The author analyzes the issues related to the activities of the main civil society institutions, by casting light on governmental measures to develop them.

**Key Words:** Azerbaijan, civil society, state power, modern period.

## Giriş

Vətəndaş cəmiyyətinin struktur elementlərinin tədqiqi müasir Azərbaycan cəmiyyəti üçün aktual əhəmiyyət daşıyır, çünki vətəndaş cəmiyyətinin inkişaf tempi və formalaşma vektorları, ölkə əhalisini bu sadə olmayan prosesdə iştirakı xeyli dərəcədə onun düzgün dərk olunması və dəyərləndirilməsindən aslıdır. Ənənəvi olaraq tədqiqatçılar vətəndaş cəmiyyəti sisteminə əsasən siyasi (partiya və hərəkatlar) və iqtisadi (sahibkar birlikləri, korporasiyalar) birlikləri, dini təsisatlar, qeyri-dövlət sosial-mədəni təşkilatları, qeyri-dövlət KİV və həmkarlar ittifaqları kimi qeyri-dövlət subyektlərini daxil edirlər.

## 1.Azərbaycan Respublikasında Vətəndaş Cəmiyyətinin Təşəkkülü

XX əsrin 80-ci illərinin ortalarında keçmiş sovetlər imperiyasında baş verən ictimai-siyasi proseslər cəmiyyətin həyatında ciddi dəyişikliklərə, siyasi, iqtisadi və mədəni sahələrdə yeni meyillərin yaranmasına səbəb oldu. Belə bir şəraitdə, 1988-ci ildə Ermənistan Moskvadakı himayədarlarına arxalanaraq ölkəmizə qarşı qarşı ərazi iddiaları irəli sürdü və Dağlıq Qarabağ münaqişəsini başlandı. Ölkənin sərhəd toxunulmazlığı ilə bağlı təhlükənin yarandığı belə bir mürəkkəb şəraitdə o zamankı Azərbaycan rəhbərliyinin qətiyyətsiz, qeyri-prinsipial mövqeyi vətənpərvər insanları yaranmış problemləri həll etmək üçün cəmiyyətlər yaratmağa və ictimai təşkilatlarda birləşməyə məcbur etdi. 80-ci illərin sonlarında "Qayğı" və "Qarabağa Xalq Yardımı Komitəsi" kimi cəmiyyətlərin

yaradılması ölkədə vətəndaşların ictimai proseslərə cəlb olunması üçün ciddi bir stimul oldu. İstər 15 avqust 1989-cü il tarixində yaradılmış “Qarabağa Xalq Yardımı Komitəsi”nin, istərsə də həmin ilin dekabr ayında yaradılmış Qaçqınlar cəmiyyətinin Dağlıq Qarabağ müharibəsi nəticəsində öz yurdlarından qaçqın düşmüş məcburi köçkünlər üçün maddi və mənəvi dəstəyinin təmin olunmasında müstəsna rolu oldu. Həmçinin Komitənin dəstəyi ilə həmin dövrdə ilk qeyri-hökumət mətbuatı olan “Azərbaycan” qəzeti nəşr olunmağa başladı. Milli, əxlaqi və demokratik dəyərləri təbliğ edən bu qəzet vətəndaşlarda vətənpərvərlik hisslərinin aşılanmasında əhəmiyyətli rol oynadı. Sovetlər imperiyasının müxtəlif bölgələrində başlanan demokratik və milli yönlü hərəkatlar nəticəsində bu imperiya 1991-ci ildə süquta uğradı və nəticədə Azərbaycan da dövlət müstəqilliyi əldə etdi. Belə bir şəraitdə yeni kapitalist iqtisadi münasibətlərinin yaranması ilə ölkədə vətəndaş cəmiyyətinin inkişafı üçün siyası, iqtisadi və ictimai baxımdan əlverişli şərait yaranmış oldu. Müstəqilliyin ilk illərində yaranmış ictimai birliklər, yəni vətəndaş cəmiyyəti strukturları əsasən qaçqın və məcburi köşkünlərin yerləşdirilməsi, onların gündəlik yaşayış problemlərinin həlli, ölkənin ayrı-ayrı bölgələrində humanitar və siyası böhranın aradan qaldırılması, hüquq müdafiəsi və informasiya yayımı sahəsinə boşluğun doldurulmasına cəhd edir və bu sahədə ixtisaslaşmağa çalışırdılar.

Ölkənin müqəddəratının həll olunduğu olduqca mürəkkəb ictimai-syasi şəraitdə, 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə gəldikdən sonra siyasi (çoxpartiyali sisteminin, informasiya azadlığının inkişaf etdirilməsi və s.) və sosial-iqtisadi sahədə (bazar iqtisadiyyatına keçid, orta təbəqənin genişləndirilməsi, əlverişli investisiya mühitinin yaradılması və s.) islahatların həyata keçirilməsinə ciddi əhəmiyyət verilməyə başladı. Azərbaycanda bazar iqtisadiyyatına malik olan hüquqi, demokratik və sosial dövlətin yaradılması paradiqmasına uyğun olaraq ölkədə vətəndaş cəmiyyətinin inkişafına və onun sosial-iqtisadi tərəqqiyə cəlb olunmasına yönəlmiş dövlət siyasəti həyata keçirilməyə başlandı.

Vətəndaş cəmiyyətinin inkişafı sahəsində dövlət siyasətinin əsas məqsədi vətəndaşların ictimai iştirakçılıq və özünütəşkil formalarının dəstəklənməsi və inkişafı üçün informasiya, hüquqi, təşkilati və infrastruktur şəraitin təmin edilməsindən ibarətdir idi.

Vətəndaş cəmiyyəti struktur elementlərinin ölkənin ictimi-siyasi və mədəni həyatında fəaliyyətinin genişlənməsində, təbii ki, onların səmərəli işləmələrinə müsbət təsir göstərən hüquqi bazanın formalaşması da az rol oynamamışdır. Azərbaycan Respublikası Konstitusiyasının, eyni zamanda, Mülki Məcəlləsinin, kütləvi informasiya vasitələri, siyasi partiyalar və qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), informasiya azadlığı haqqında qanunların və digər mühüm qanunvericilik aktlarının qəbul edilməsi ölkəmizdə siyasi partiyaların, dini icmaların, KİV və s. qurumların hərtərəfli fəaliyyətinə zəmin yaratmış, GHT-lərin beynəlxalq standartlara uyğun qurul-masını şərtləndirmişdir.1992-ci ildə "İctimai birliklər haqqında" qanunun qəbul edil¬məsi vətəndaş cəmiyyəti institutlarının sərbəst fəaliyyətinin təmin edilməsi və onların üzləşdiyi problemlərin həll edilməsi sahəsində irəliyə doğru mühüm bir addım oldu.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ilə vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti üçün lazımi hüquqi baza yaradılmış oldu. Doğrudur, konstitusiyada "vətəndaş cəmiyyəti" istilahı işlədilmir, lakin məhz elə bu Əsas Qanunda əks olunan hüquqi normalar bu cəmiyyətinin struktur elementlərinin formalaşması və inkişafı üçün hüquqi əsas yaradır. Konstitusiyanın 12-ci maddəsində göstərilir: "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir" ( Konstitusiya, 2021: 7). Beləliklə, dövlət vətəndaş cəmiyyəti üçün zəruri olan siyasi və hüquqi şərtləri təmin etməyi öz öhdəsinə götürür. Məlum olduğu kimi, vətəndaş cəmiyyətinin formalaşması və inkişafı üçün xüsusi mülkiyyətinin zəruri şərt olduğu hələ Yeni dövr mütəfəkkirləri tərəfindən xüsusi olaraq qeyd edilmişdir. Bu baxımdan Əsas Qanunun 13-ci maddəsində dövlət mülkiyyəti ilə

yanaşı, xüsusi mülkiyyətin və bələdiyyə mülkiyyətinin təsbit olunması orta təbəqənin say etibarilə çoxalması və cəmiyyətdə mövqeyinin möhkəmlənməsi baxımından vətəndaş cəmiyyətinin iqtisadi bazası üçün əhəmiyyətlidir. Vətəndaş cəmiyyətinin mövcud olmasının zəruri şərti kimi bunları qeyd etmək olar: birincisi, əhalinin vətəndaş mədəniyyəti səviyyəsinin inkişaf etməsi, öz hüquq və azadlıqlarını dərk etməsi; ikincisi, siyasi qərarların hazırlanması və qəbul edilməsinə vətəndaşların təsir göstərməsinə imkan verən açıq xarakterli siyasi sistemin mövcud olması; üçüncüsü, ictimai aktorların dövlət hakimiyyətindən aslı olmaması və iqtisadi bazis kimi xüsusi mülkiyətin təsbit olunması. Bu baxımdan Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan II bölmənin 3-cü fəslində öz inikasını tapmış maddələri qeyd etmək lazımdır (Konstitusiya, 2021: 10-24). Burada ölkə vətəndaşlarının cəmiyyətin ictimai və siyası həyatında fəal mövqeyini, siyas iştirakçılıq və sosiallaşmanı təmin edəcək demokratik azadlıqlar təsbit olunmuşdır. Vətəndaş cəmiyyətinin inkişafı baxımından əsas hüquqi baza olan 58-ci maddə xüsisi əhəmiyyətə malikdir. Bu maddədə hər bir vətəndaşın istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququ təsbit olunur ( Konstitusiya, 2021: 19-20).

Qeyd etmək lazımdır ki, qanuna zidd və hüquqi noramaları pozmaqla fəaliyyət göstərən hər hansı bir birləşmə və ya cəmiyyət vətəndaş cəmiyyətinin strukturuna aid edilə bilməz. Respublikamızın demokratik inkişaf, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı nailiyyətlər, məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılan möhkəm təmələ əsaslanır (Hüseynov, R: 2017).

## 2. Qeyri-Hökumət Təşkilatları

Vətəndaş cəmiyyətinin struktur elementləri içərisində qeyri-hökumət təşkilatları mühüm yer tutur. Ölkədə 90-ci illərinin birinci yarısında qəbul edilmiş hüquqi aktlar vətəndaş cəmiyyətinin inkişafını təmin etmək baxımından yetərli olmadığına görə, 1999-cu ildə 95 təşkilat tərəfindən Milli Qeyri-Hökumət Təşkilatları Forumu (MQF) təsis edildi. Bu qurumun

başlıca məqsədi QHT-lərin maraqlarının təmsilçisi kimi çıxış etmək, onları fəaliyyətlərinə səmərəli təsir göstərə biləcək zəruri informasiya ilə təmin etmək və yaranmış problemləri kollegial şəkildə həll etməkdən ibarət idi. Azərbaycanda 13 iyun 2000-ci il tarixində Qeyri-Hökumət Təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi və bu qanun əsasında milli QHT platforması, Milli QHT Forumu (MQF) yaradılması vətəndaş cəmiyyətinin inkişafı istiqamətində irəliyə doğru mühüm bir addım oldu. Sonrakı illərdə Hökumət, QHT-lər və mütəxəssislər mövcud şəraitdən doğan tələbi nəzərə alaraq donor təşkilatın yaradılması istiqamətində araşdırmalar apardıqdan sonra konkret rəy və təkliflər hazırladılar. Belə bir donor qurum Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası oldu. 27 iyul 2007-ci il tarixində qəbul edilmiş "Azərbaycan Respublikasının Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası"na görə, dövlət dəstəyinin prioritet sahələri aşağıdakılardan ibarətdir: azərbaycançılıq ideyasını təşviq olunması, Azərbaycanın dünya birliyinə inteqrasiya olunması; siyasi-hüquqi və vətəndaş mədəniyyətinin formalaşdırılması, vətəndaşların hüquqi biliklərinin inkişaf etdirilməsi; insan hüquq və azadlıqlarının təmin edilməsi; söz, fikir və ifadə azadlığının genişləndirilməsi; təhsil, elm, texnika, mədəniyyətin inkişaf etdirilməsi və s. (Konsepsiya, e-qanun.az, 2020) QHT-lərin fəaliyyətinin hüquqi bazasının genişləndirilməsi və bu istiqamətdə çalışan qurumlar üçün yeni perspektivlərin yaradılması baxımından "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunun da müstəsna əhəmiyyəti vardır. Qanunun 2-ci maddəsində qeyri-hökümət təşkilatlarının ictimai birlik və fondlardan ibarət hesab edildiyi göstərilir (QHT-lər, e-qanun.az, 2020).

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk dövrlərdən sosial-iqtisadi və siyasi dəyişikliklər istiqamətində ardıcıl siyasi iradə nümayiş etdirdi. Ölkə rəhbərinin dəstəyi, təşəbbüsü və tövsiyəsi ilə QHT-lərlə dövlət orqanları arasında təmasların qurulmasında, qarşılıqlı inam və etimadın yaradılmasında mühüm uğurlar əldə edildi, QHT-lərin fəaliyyət mexanizmləri beynəlxal standartlara

uyğun şəkildə quruldu, təkmilləşdirildi. 2000-ci illərin əvvəlləri üçün QHT-lərin inkişafında ən mühüm cəhət onların konkret sahələr üzrə ixtisaslaşmasının başa çatması oldu. Bu qurumlar ölkədə vətəndaş cəmiyyəəti quruculuğu, demokratik və hüquqi dövlətin formalaşması, Azərbaycanın dünya birliyinə inteqrasiyası, insan haqlarının qorunması, sosial və iqtisadi islahatların aparılması, qaçqın və məcburi köçkün problemlərinin həll edilməsi, elm, təhsil və mədəniyyət sahələrindəki boşluqların doldurulmasına yardım etməklə 24 fəaliyyət istiqamətini əhatə edə bildilər. Dövlət Dəstəyi Şurası fəaliyyət göstərdiyi dövr ərzində QHT-lər tərəfindən irəli sürülmüş çoxlu sayda təşəbbüsün reallaşdırılmasını və maliyyələşdirilməsini təmin etmişdir. Bununla da Azərbaycan tarixində ilk dəfə olaraq QHT-lərin öz təşəbbüs və layihələrini həyata keçirmək üçün dövlətdən maliyyə dəstəyi almaları onların fəaliyyətində yeni mərhələnin əsasını qoymuş, ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafına mühüm təsir göstərmişdir. Şuranın yaradılması ilə GHT-lərin fəaliyyəti üçün geniş perspektivlər açıldı. Ölkədə QHT-lərin cəmiyyətin aparıcı qüvvələrindən birinə çevrilməsində QHT Şurasının məqsədyönlü fəaliyyəti də az rol oynamadı. 2007-ci il iyun ayını 27-də isə Prezidentin müvafiq sərəncamı ilə ” Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası”nın təsdiqi ilə vətəndaş cəmiyyətinin inkişafı istiqamətində hüquqi, siyasi və iqtisadi şərtlərin təmin edilməsi baxımdan yeni bir mərhələnin başlanğıcı qoyuldu. Bu konsepsiyanın qəbul olunması ilə vətəndaş cəmiyyətinin inkişafı üçün yeni perspektivlərin açılması ilə yanaşı, dövlət orqanlarının vətəndaş cəmiyyətinin QHT-lərə aid struktur elementləri ilə qarşılıqlı əlaqələrdə vəzifə və səlahiyyətləri də konkretləşmiş oldu.

Proqramdan əsas məqsəd dövlətin məlumat, məsləhət, konfranslar və s. vasitələrlə vətəndaş cəmiyyətinin bəhs olunan strukturlarının inkişaf etdirilməsinə, onların cəmiyyətə daha artıq inteqrasiya olunmasına, sosiallaşmanın genişlənməsinə və hüquqi dövlət quruculuğu işində onların fəal rol oynamasına şərait yaratmaqdan ibarətdir. Milli donor institutunun yaradılması ilə QHT sektorunun xaricdən asılılığının

azaldılması istiqamətində mühüm addım atılmış oldu. Dövlət dəstəyinin prioritet sahələri kimi azərbaycançılıq ideyasının təşviq olunması, Azərbaycanın dünya birliyinə inteqrasiya olunması, siyasi-hüquqi və vətəndaş mədəniyyətinin formalaşdırılması, insan hüquq və azadlıqlarının təmin edilməsi, söz, fikir və ifadə azadlığının geniş¬lənməsi kimi müddəalar ölkənın demokratik cəmiyyət quruculuğu istiqamətində nailiy¬yətlər əldə etməsi baxımından da əhəmiyyətlidir.

Ümumilikdə, Dövlət Dəstəyi Şurası sosial müdafiə istiqamətində konkret əhali qruplarına yardımın təşkil olunmasında, səmərəli və demokratik idarəetmə qaydalarının təkmilləşdirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılmasına xüsusi diqqət ayırırdı. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planında öz əksini tapmış "Makroiqtisadi sabitlik və iqtisadi artım", "Məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi", İnsan kapitalının inkişafı və sosial tərəqqi", "İnstitisional siyasət və səmərəli idarəetmə" kimi müddəalar vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, onun möhkəmlənməsi işində mühüm amil olan orta təbəqənin nisbi göstəricisin artması baxımından əhəmiyyətlidir.

Belə hesab etmək olar ki, Şuranın yaradılması ilə QHT-lərin yaranması və inkişafında yeni mərhələ başlanmışdır. Bu mərhələdə QHT-lərdə kəmiyyət və keyfiyyət baxımında ciddi dəyişiklik baş verdi. Bu mərhələnin günümüzədək davam etdiyini söyləmək olar. QHT-lərin sayı da əhəmiyyətli dərəcədə artmış oldu. Qeyd etmək lazımdır ki, QHT-lər təkcə kəmiyyətcə artmamış, onların həm də fəaliyyət növü istiqamətində differensasiyası artmışdır. QHT-lərin sayca artmasını dövlət dəstəyi ilə yanaşı, eyni zamanda onların beynəlxalq fond və təşkilatlar tərəfindən maliyyə cəhətdən dəstəklənməsi ilə izah etmək olar. Hal-hazırda ölkədə 300-dən artıq QHT fəaliyyət göstərir. Bu gün üçüncü sektorda tam şəklidə 15 min nəfər, müvəqqəti olaraq (ekspert və məsləhətçi kimi) 25 min nəfərə yaxın, könüllü kimi 40 min nəfərdən artıq insan çalışır. Ölkə QHT-lərinin fəaliyyətinin təhlili göstərir ki, hal-hazırda müxtəlif istiqamətlərdə fəaliyyət göstərən GHT-lərin kifayət qədər sabit qrupu formalaşıb. Dövlət tərəfindən himayə olunan QHT-lərin prioritet istiqamətlərini bunlardan ibarət hesab etmək olar:

ekoloji, uşaq, gənclər, təhsil, sosial, gender, hüquqi mudafiə və tibbi. Bunların faiz göstəriciləri təqribi olaraq belədir: ekoloji- 15 faiz, uşaq və gənclər- 13,6 faiz, qadın- 13,3 faiz, tibbi- 13,1 faiz, mədəniyyət, incəsənət elm və təhsil- 12,5 faiz, hüquq müdafiə- 7,6 faiz, sosial müdafiə-6,8 faiz, ictimai təşəbbüsü müdafiə- 6 faiz, çoxprofilli- 4,7 faiz, tibbi kömək -7,4 faiz.

Dövlət GHT-lərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək üçün onlara lazımi dərəcədə maliyyə dəstəyi göstərir. Məhz bu siyasətin nəticəsidir ki, onların vətəndaş cəmiyyəti quruculuğu işində ölkə həyatına töhfə vermələri artan templə inkişaf etməkdədir. Bununla belə, QHT-lərin bölgələrdə, xüsusən də kənd yerlərində paytaxta nisbətən zəif inkişafı problemi qalmaqdadır. Onlardan təqribən 8% bölgələrdə fəaliyyət göstərir ki, bu da ictimai təşəbbüsün inkişafı üçün kifayət deyil. QHT-lərlə bağlı qəbul edilmiş qanun və qərarlar onların bölgələrdə fəaliyyətini canlandırmaqla əhalinin işlə təmin olunmasına və sosial infrastrukturun inkişafına kömək etmiş olacaq.

QHT-lərin himayə olunmasından əsas məqsəd Azərbaycan Respublikasında sosial siyasətin həyata keçirilməsində yeni model formalaşdırmaq, sosial təmayüllü QHT-lərə onlarla dövlətin fəal əməkdaşlığı yolu ilə səmərəli köməklik göstərmək, onların sosial əhəmiyyətli məsələlərin həllinə cəlb olunması, informasiya-məsləhət, metodik, təşkilati-texniki yardım göstərilməsi, habelə dövlət sosial sifarişi vasitəsilə onlara köməklik göstərilməsindən ibarətdir. Dövlət tərəfindən QHT-lərin himayə olunması bir qayda olaraq qanunilik, əməkdaşlıq, şəffaflıq, bərabərhüquqluluq, qarşılıqlı razılıq və cavabdehlik prinsiplərinə əsaslanır.

Hakimiyyətlə, dövlət orqanları ilə əlaqələrin, qarşılıqlı münasibətlərin genişlən-dirilməsi, müxtəlif siyasi tədbirlərin keçirilməsi vətəndaş cəmiyyətinin inkişafı, onun əhali içərisində nüfuzunu artması və yeni fəaliyyət sahələrinin yaranması baxımından mühüm əhəmiyyətə malikdir. Bu baxımdan 9 senyabr 2016-cı il tarixində Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş cəmiyyəti Dialoqu Platformasının təsis olunmasının xüsusi əhəmiyyəti vardır. Təsis yığıncağında geniş

müzakirələrdən sonra 9 hökumət, 31 vətəndaş cəmiyyəti təmsilçisi olmaqla Açıq Hökumətin təşviqinə dair " Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması"nın yaradılması barədə Memorandumu imzalanmışdır. Sənədin 4-cü maddəsi vətəndaş cəmiyyəti institutlarına həsr olunub. Platformanın yaradılması dövlətin bu istiqamətdə siyasi iradəsini bariz şəkildə nümayiş etdirir.

Son illər ərzində Azərbaycan hökuməti "Azərbacan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında qarşılıqlı münasibətlərin təkmilləşdirilməsi və QHT-lərin fəaliyyətinin daha səmərəli şəkildə dəstəklənməsi istiqamətində onların irəli sürdüyü layihələrin maliy¬yələş¬dirilməsi məqsədilə qrant müsabiqələri keçirmiş və cəmiyyətdə nüfuzlarının artırılması üçün digər mühüm tədbirlər təşkil edilmişdir. Dəstək Şurasının fəaliyyətinə gəlincə, Dağlıq Qarabağ münaqişəsi, erməni saxtakarlıqlarının ifşa olunması, cəmiyyətin maariflənməsi ilə bağlı QHT və digər vətəndaş cəmiyyəti institutlarının potensialından səmərəli istifadə olunması istiqamətində onların gördüyü işləri qənaətbəxş hesab etmək olar. Təkcə 2016-cı ildə Şura tərəfindən maliyyələşdirilmiş 46 layihə əsasən xarici ölkələrdə Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın beynəlxalq arenada təbliği, mə¬ dəniy¬yət və milli dəyərlərimizin dünya xalqlarına tanıdılması, başqa ölkələrin vətəndaş cəmiyyəti strukturları ilə əlaqələrin yaradılması, ölkə daxilində azərbaycançılıq, dövlətçilik və vətənpərvərlik ideyalarının təbliğı, cəmiyyətdə ümumbəşəri dəyərlərin aşılanması işinə yönəlmişdır (Dövlət Dəstəyi Şurası, cssn.gov.az, 2020 )

Məlum olduğu kimi, vətəndaş cəmiyyəti quruculuğu və inkişaf etdirilməsinin, cəmiy-yətin ictimai-siyasi həyatına hər bir fərdin daha artıq inteqrasiya olunmasının zəruri siyasi şərtlərindən biri də insan hüquq və azadlıqlarının müdafiə olunmasıdır. Dəstək Şurası təkcə 2017-ci ildə vətəndaş cəmiyyətinin inkişafına bilavasitə təsir göstərəcək demokratik azadlıqlarla bağlı məsələlər üzrə 14 qeyri-hökumət təşkilatının layihə təkliflərini maliyyələşdirmiş, bu layihə çərçivəsində ümumilikdə 16-sı təlim olmaqla 52 tədbir keçirilmiş, 2 kitab və

kitabça, 1 ədəd buklet və digər nəşr məhsulları və 5 televiziya verilişi hazırlanmış və ümumilikdə layihədən 2161 nəfər faydalanmışdır ( Dövlət dəstəyi Şurası, cssn.gov.az, 2020).

### 3. Siyasi Partiyalar və İctimai Hərəkatlar

QHT-lərlə yanaşı, ictimai-siyasi hərəkat və siyasi partiyalar da vətəndaş cəmiyyətinin struktur elementi kimi demokratikləşmə və ümumi tərəqqi prosesində müstəsna rola malikdir. Müasir demokratik cəmiyyətlərdə siyasi partiya dövlətlə vətəndaş cəmiyyətini bir-birinə bağlayan siyasi proses iştirakçılarından biri və əhalinin müxtəlif siyasi maraqlarını bilavasitə ifadə edən bir institut hesab olunur. Ümumilikdə belə bir rəy mövcuddur ki, bir-birilə rəqabət aparan siyasi partiyalar demokratik siyasi sistemin ən vacib institutlarından biridir. Bununla yanaşı, siyasi partiya vətəndaş cəmiyyətinin ən çox institutalizasiya olunmuş hissəsi hesab olunur. Siyasi partiyaların siyasi sistemdə yeri onun ikili təbiəti ilə şərtlənib: o bir tərəfdən vətəndaş cəmiyyətinin struktur elementi, digər tərəfdən isə dövlət mexanizminin bir hissəsdir. Partiyanın öz kökləri etibarilə qrup maraqlarının formalaşdığı vətəndaş cəmiyyətinə bağlı olması və eyni zamanda bu siyasi institutun öz rəhbər instansiyaları vasitəsilə dövlət hakimiyyəti mexanizminə çevrilmə imkanı ona dövlətlə vətəndaş cəmiyyəti arasında ikitərəfli əlaqələrin vasitəçisi kimi nadir bir keyfiyyət qazandırır. Siyasi partiya vətəndaş cəmiyyəti maraqlarını dövlətə çatdıra bilən ən əhəmiyyətli körpü roluna malikdir. Lakin bu funksiyanı yerinə yetirməklə yanaşı, siyasi partiya öz siyasi maraqlarına nail olmağı qarşısına bir məqsəd olaraq qoyur. Vətəndaş cəmiyyətinin qrup maraqlarını ifadə edən siyasi partiya yalnız öz partiya proqramını və seçkiqabağı vədlərini yerinə yetirməyə görə deyil, həm də bu və ya digər siyasi rejim tərəfindən cəmiyyətin siyasi cəhətdən səmərəli şəkildə idarə olunmasına görə məsuliyyət daşıyır ( Zavyalov, 2011: 55). Partiyanın məqsədləri içərisində dövlətdə açar yerlərə öz nümayəndələrini irəli sürmək yolu ilə hakimiyyəti əldə etmə və onu həyata keçirməni xüsusi olaraq qeyd etmək olar. Bu zaman partiya əsasən seçki prosesində digər partiyalarla mübarizəə nəticəsində qazanmış olduğu ictimai dəstəyə arxalanır. Pariya vətəndaşların siyasi iştirak institutu kimi pariyadaxili

demokratiyanı əhəmiyyətli dərəcədə xarakterizə edir. S. M. Baramidze siyasi pariyanın məqsədlərindən bəhs edərək yazır ki, onlardan aşağıdakılar vətəndaş cəmiyyəti üçün də məqsəddir: ictimai rəyin formalaşdırılması, vətəndaşların siyasi maarif və tərbiyəsi, ictimai həyatın istənilən məsələsi üzrə vətəndaşların öz fikirlərini ifadə etməsi, bu fikirlərin geniş ictimaiyyətə və dövlət hakimiyyəti orqanlarına çatdırılması (Baramidze, 2013: 117).

1991-ci ilin dekabr ayinda SSRİ-nin dağılması nəticəsində Azərbaycan Respublikası tam dövlət müstəqilliyi əldə etdi. Milli azadlıq və dövlət müstəqilliyi uğrunda uğrunda mübarizə illərində və ondan sonrakı dövrdə Yeni Azərbaycan Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Dirçəliş və Tərəqqi Partiyası, Azərbaycan Xalq Cəbhəsi Partiyası, Ana Vətən Partiyası kimi siyasi təşkilatlar meydana gəldi. Hal-hazırda ölkədə dövlət qeydiyyatından keçmiş 58 partiya fəaliyyət göstərir. Bu partiyaların bir çoxu bələdiyyə, parlament və prezident seçkilərində fəal iştirak edir. VI Çağırış Azərbaycan Respublikası Milli Məclisində iqtidar və müxalifətdən bu partiyalar təmsil olunurlar: Yeni Azərbaycan Partiyası, Böyük Quruluş Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Ana Vətən Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Milli Cəbhə Partiyası, ReAl Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Vətəndaş Birliyi Partiyası və Demokratik İslahatlar Partiyası parlamentdə təmsil olunurlar. Hakim partiya və müxalifət kütləvi ictimai-siyasi tədbirlər keçirmə, kütləvi informasiya vasitələrində daxili və xarici siyasi vəziyyətə dair öz fikirlərini təbliğ etmə, seçkilərdə iştirak yolu ilə cəmiyyətdə demokratikləşmənin dərinləşməsi prosesində fəal iştirak edirlər. Ölkədə müxalifət partiyalarının öz tənqidi fikirlərini ifadə etməsi və mütinqlər təşkili üçün hər cür şərait yaradılmışdır. Siyasi partiyalar müxtəlif ölkələrdə keçirilən ictimai-siyasi məzmunlu konfranslarda iştirak və s. üsullarla öz legitim siyasi mübarizə üsullarını daha da təkmilləşdirirlər. Milli Məclisdə təmsil olunan partiyaların dövlət büdcəsindən maliyyələşməsi də onların cəmiyyət üçün daha səmərəli fəaliyyətinə şərait yaradır.

Müasir dünyanın əksər siyasi sistemləri kimi Azərbaycan siyasi sisteminə də çoxpartiyalılıq xasdır. Siyasi partiya seçkidə qalib gəldiyi təqdirdə qanunverici və yerli özünüidarəetmə orqanlarında təmsil olunmaq vasitəsilə dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak etmək imkanı əldə edir. Azərbaycan Respublikası vətəndaşlarının tam sərbəst surətdə siyasi partiya və ya müxtəlif ictimai birliklərdə fəaliyyəti ilə bağlı hüquqları Konstitusiyanın 58-ci maddəsində təsbit olunmuşdur (Konstitusiyası, 2021:19-20) .

Azərbaycanda siyasi partiya ilə dövlət və vətəndaş cəmiyyətinin digər struktur elementləri arasında qarşılıqlı münasibətlərin institutalizasiyası və bunun hüquqi bazasının yaranması müstəqilliyin ilk illərinə təsadüf edir. Bu siyasi prosesə ilk növbədə xalqın azadlıq uğrunda siyasi mübarizəsi və Dağlıq Qarabağ məsələsi ətrafında erməni separatizminə qarşı mübarizəsi təkan vermiş oldu. Azərbaycandakı siyasi qüvvələrin inkişaf dinamikasını təhlil etdikdə məlum olur ki, partiya subyektlərinin təkamül meyli əvvəllər əsasən sağ istiqamətə doğru olmuş, son illər isə solçuluq şüarlarına üstünlük verilməkdədir (Allahyarova- Məmmədov, 2010: 16).1992-ci ilin 3 iyun tarixində “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikası qanununun qəbul edilməsi siyasi pariyaların təsis edilməsi və onların cəmiyyətin ictimai-siyasi həyatında fəal rol oynaması baxımından həlledici əhəmiyyətə malik idi. Bu qanun siyasi plüralizmin və çoxpartiyalı siyasi sistemin institusional baxımdan formalaşması üçün normativ baza yaratmış oldu.

Təbii ki, müasir şəraitdə partiya sisteminin inkişafı yalnız dövlətin ona münasibətindən deyil, həm də pariyaların fəaliyyətinin dövlətlə qarşılıqlı münasibətdə vətəndaş cəmiyyətinin maraq və tələbatını nə dərəcədə nəzərə almasından aslıdır. Ölkədə “Siyasi partiyalar haqqında” Qanuna və Seçki Məcəlləsinə müxtəlif illərdə edilən əlavə və dəyişikliklərin başlıca məqsədi onların cəmiyyətdə rolunu yüksəltmək, siyasi sistemin əsas həlqəsində mühüm siyasi aktora çevirməkdən ibarətdir. Həyata keçirilmiş islahat və dəyişiliklər sayəsində siyasi partiyalar ölkədə siyasi proseslərin əsas subyektlərindən birinə çevrilmişdır. Azərbaycanda müasir şəraitdə partiya sistemi və siyasi partiyalar prinsip etibarilə yeni institusional və

hüquqi çərçivə əldə etmişdir. “Siyasi partiyalar haqqında” Azərbacan Respublikası Qanununda onların azadlıq, könüllülük, üzvlərin hüquq bərabərliyi, , özünüidarə,qanunçuluq və aşkarlıq prinsipləri əsasında fəaliyyət göstərdiyi qeyd olunur ( Siyasi partiyalar haqqında, e-qanun.az, 2020).

Ölkədə həyata keçirilən sosial-siyasi dəyişiliklər dövlət və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı təsir mexanizminin inkişaf prosesinin fasiləsiz davam etməsini zəruri edir. Bu mexanızm vətəndaş cəmiyyəti və dövlətin qarşılıqlı təsirlərinin təşkili formalarını, habelə dövlət və vətəndaş cəmiyyəti institutlarının yaranmasının normativ-hüquqi bazasını ehtiva edir. Bəhs etdiyimiz məsələlərin həlli bu Qanun çərçivəsində mümkündür. Belə ki, partiya vətəndaş cəmiyyəti strukturları və dövlət arasında səmərəli və möhkəm əlaqələri təmin etməli, vətəndaş cəmiyyəti daxilinə partiya strukturlarının daha dərindən nüfuz etməsinə səy göstərməlidir. Bundan başqa ictimai maraq və tələblərin ictimai təşkilat və vətəndaşlardan dövlətə partiya vasitəsilə ötürülməsinin mexanizmini yaratmalıdır. O, həmçinin özü ilə vətəndaş cəmiyyətini təşkil edən digət təsisatların, məsələn, həmkarlar təşkilatlarının, dini qurumların, habelə yerli özünüidarəetmə orqanlarının birgə fəaliyyət göstərmə şəraitini təmin və təsbit edir. “Siyasi partiyalar haqqında” qanunu kifayət qədər demokratik hesab etmək olar. Qanun hər bir arzu edən şəxs üçün siyasətlə məşğul olmağa imkan yaradır. Cəmi 1000 nəfər tərəfdar və həmfikir toplamaqla partiya təsis edib qeydiyyatdan keçirmək olar. Qanun hamı üçün eyni şəraiti nəzərdə tutur, əgər xalq tərəfindən dəstəklənərsə, hər kəs siyasətçi ola bilər. Bu Qanunun müsbət cəhəti kimi aşağıdakıları qeyd etməkl olar:

1.O, pariyaların möhkəmlənməsi üçün qanuni şəraiti təmin edir, rayon təşkilatlarının təsis olunması və fəaliyyəti üçün, həmçının partiya üzvlüyünün kütləviləşməsinə imkan yaradır;

2.Siyasi partiyaların seçki prosesində fəal iştirakı, məntəqə, dairə və MSK-ya üzvlüyü təmin olunur və Qanunun12-cı maddəsində siyasi partiyaların hüquqlarından biri kimi göstərilir:” Azərbaycan Respublikası Milli Məclisinin,

Azərbaycan Respublikası Prezidentinin və yerli özünüidarəetmə orqanlarının seçkilərində, habelə ümumxalq səsverməsi-referendumlarda iştirak etmək”; ( Siyasi partiyalar haqqınnda, e-qanun.az, 2020) Bu həmçinin Seçki Məcəlləsində öz əksini tapmışdır.

3.Hər bir partiyadan öz məqsəd və vəzifələrini, fəaliyyət prinsiplərini əks etdirən proqrama malik olması tələb olunur ki, bu da onların seçkilər zamanı vətəndaş cəmiyyəti institutları ilə konkret predmet əsasında münasibətlərinin dərinləşdirməsinə imkan verir.

Siyasi partiyalarla müqayisədə Azərbaycanın ictimai həyatında ictimai hərəkatların rolu bir qədər zəifdir. Daha fəal ictimai hərəkatlara nümunə kimi Qarabağ Azadlıq Təşkilatını və Yaşıllar Hərəkatını göstərmək olar.

## 4. Dini İcma və Birliklər

Dini icmalar insanların dünyagörüşü dəyərləri əsasında birləşməsinin ictimai əhəmiyyətli ilkin formalarından biri hesab olunur. Bu institusional birlik forması insanların dini tələbatlarını ödəmək üçün yaradılır və eyni zamanda xeyriyyəçilik, təhsil və digər fəaliyyətləri ilə bütövlükdə cəmiyyətə əhəmiyyətli dərəcədə təsir göstərmiş olur. Azərbaycan Respublikasında dini birliklərin hüquqi statusu dövlətin dünyəvi dövlət kimi təsbit edilməsi və dini birliklərin dövlətdən ayrı olması prinsipini nəzərdə tutuan konstitusiya maddələrinə əsaslanır (Konstitusiya, 2021: 5, 8). Qeyd etmək lazımdır ki, dünyəvilik və dövlətin dindən ayrı olması prinsipi heç də vətəndaşların dini azadlıqlarına, müxtəlif dini birlik və icmalara daxil olmasını mane olmur. AR Konstitusiyasının 48-ci maddəsində göstərilir: “hər kəsin vicdan azadlığı vardır, hər kəsin dinə münasibətini müstəqil surətdə müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır” (Konstitusiya, 2021: 48).

Ölkəmizdəki dini birliklərin vətəndaş cəmiyyəti institutu kimi nəzərdən keçirilməsi üçün onların aşağıdakı xarakterik

əlamətlərini qeyd etmək lazımdır: müəyyən bir formaya, məqsədə malik olmaq,yaranma və fəaliyyət göstərmənin qeyri-dövlət qaydası, özünüidarəetmə, könüllülük, bərabərhüquqlu münasibətlər, institutlar sistemində iyerarxiyanın mövcud olmaması. Bu xüsusiyyətlər "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununda öz ifadəsini tapıb. Dövlət və dinin ayrı olması prinsipi isə bu Qanunun 5-cı maddəsində qeyd olunur: "Azərbaycan Respublikasında din və dini qurumlar dövlətdən ayrıdır. Dövlət ona aid olan hər hansı işin yerinə yetirilməsini dini qurumlara tapşırmır və onların fəaliyyətinə qarışmır" (Dini etiqad azadlığı haqqında, e-qanun.az, 2021). Vətəndaş cəmiyyəti institutları üçün xas olan iyerarxiyanın olmaması prinsipi ilə əlaqədar olaraq qeyd etmək lazımdır ki, bu prinsip vətəndaş cəmiyyətinin müxtəlif institutları arasında iyerarxiyanın olmamasını nəzərdə tutur, yəni hər hansı bir konfessiya daxilində tabeçilik münasibətinin olması heç də onun vətəndaş cəmiyyəti strukturu olmasını inkar etmək üçün əsas ola bilməz.

Hal-hazırda Azərbaycan Respublikasında dövlətin dini siyasətinə bilavasitə məşğul olan bir idarə- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Ölkə üçün həssas bir məsələ olan dini siyasəti daha diqqətlə həyata keçirmək üçün Ulu Öndər Heydər Əliyevin 20 iyul 2001-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi yaradılmış və onun əsasnaməsi təsdiq edilmişdir. Əsasnaməyə görə, bu komitənin əsas vəzifəsi dini etiqad azadlığının həyata keçirilməsi üçün müvatiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına nəzarət edilməsi kimi məsələrdən ibarətdir (Əsasnamə, e-qanun.az, 2001). Azərbaycan Respublikasında dövlət və yerli özünüidarəetmə orqanlarının dini birlik və icmalarla qarşılıqlı əlaqələri vətəndaş və insan hüquqlarına ehtiram, vicdan və dini etiqad azadlığı, dinin dövlətdən ayrı olması prinsipi və Azərbaycan xalqının tarixi irsinin ayrılmaz tərkib hissəsini təşkli edən islam, habelə xristianlıq, iudaizm və s. dinlərə hörmət əsasında həyata keçirilir. Bəhs etdiyimiz Komitənin əsas vəzifəsi AR Konstitusiyasının 48-ci maddəsində nəzərdə tutulan hüquq və vəzifələrin həyata keçirilməsi üçün müvafiq şəraitin

yaradılması, dini icmalarla hakimiyyət orqanlarının əməkdaşlığının səmərəli mexanizm və formalarını müəyyənləşdirməkdən, müxtəlif konfessiyalara mənsub vətəndaşların dini azadlıqları ilə bağlı dövlət siyasətinin təkmilləşdirilməsi və həyata keçirilməsi kimi məsələlərin həllindən ibarətdir. Hal-hazırda Azərbaycanda qeydiyyatdan keçmiş müxtəlif dinlərə mənsub icmaların sayı 971-dir.

**5. Həmkarlar İttifaqları**

Azərbaycanda ən geniş yayılmış vətəndaş cəmiyyəti institutlarından biri də həmkarlar ittifaqlarıdır. Həmkarlar ittifaqları strukturlarını onların siyasətdə subyekt olmalarını müəyyən edən, yəni siyasi prosesin iştirakçısı kimi çıxış etmələrinə, müstəqil şəkildə fəaliyyət göstərmələrinə və öz fəaliyyətləri ilə siyasi həyata təsir göstərməyə qabil olmalarına imkan verən təşkilati, hüquqi-normativ, ideoloji və başqa resurslara malik olduqlarından  siyasi sistemin bir hissəsi kimi xarakterizə etmək olar ( Prasolov, 2011: 15). 1993-cü ildə təsis edilmiş Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 27 üzv təşkilatdan ibarətdir. 2000-ci ildən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının üzvü olan AHİK bu beynəlxalq təşkilatın keçirdiyi bütün tədbirlərdə yaxından iştirak edir.

Həmkarlar İttifaqları Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında xüsusi yerə malikdir və ənənəvi olaraq vətəndaşların ən kütləvi ictimai təşkilatı funksiyasını yerinə yetirir. Çoxsaylı tədqiqatlar göstərir ki, Azərbaycan həmkarlar ittifaqlarının cəmiyyətdə sosial sabitliyi təmin edəcək bir institut kimi rolunun artması və mövqeyinin möhkəmlənməsi baş verir. Bu qurumu dövlətin sosial siyasət məsələləri üzrə tərəfdaşı hesab etmək olar. Həmkarlar İttifaqı insanların əmək hüquqlarının, o cümlədən işləyən bütün kateqoriyaların sosial hüquqlarının həyata keçirilməsində vahid standart müəyyən edir. Ekspertlərin fikrincə, həmkarlar ittifaqları fəallıq dərəcəsinə görə ölkənin ictimai təşkilatları içərisində aparıcı yerlərdən birini tutur. O, çoxsaylı ictimai münasibətlərin iştirakçısıdır. Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətinin əsas istiqamətləri hüquq müdafiəsi, qanun hazırlanması, əmək mühafizəsi və onun üçün təhlükəsizlik şəraitinin

yaradılmasından ibarətdir. “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilir:”İşçilər, pensiyaçılar, təhsil alan şəxslər heç bir fərq qoyulmadan öz istəkləri ilə, qabaqcadan icazə almadan könüllü surətdə həmkarlar ittifaqları yaratmaq, habelə öz qanuni mənafelərini, əmək, sosial, iqtisadi hüquqlarını müdafiə etmək üçün həmkarlar ittifaqlarına daxil olmaq və həmkarlar ittifaqı fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər” ( Həmkarlar İttifaqları haqqında, e-qanun.az, 2019). Qeyd etmək lazımdır ki, demokratik inkişaf yolu seçmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da həmkarlar ittifaqlarının sayı və fəallığı artmaqdadır. Həmkarlar təşkilatı sıralarına vətəndaşların cəlb olunmasında dövri mətbuatda və kütləvi informasiya vasitələrində onların konkret işləri və əsas fəaliyyət istiqamətləri haqqında geniş və obyektiv məlumatların verilməsi də kömək etmiş olur.

Azərbaycan Respublikası həmkarlar təşkilatının əsas fəaliyyəti vətəndaşların sosial-iqtisadi hüquqlarının müdafiəsinə, əmək haqlarının artırılmasına, sosial problemlərinin və pensiya təminatı məsələlərinin həllinə yönəldilib. Həmkarlar ittifaqları öz üzvlərinin əmək hüquqlarını müdafiə edir, “Məşğulluq haqqında” qanuna uyğun olaraq məşğulluğa kömək göstərilməsi tədbirlərinin və nəzarətin həyata keçirilməsində iştirak edirlər. Kollektiv müqavilələrin və sazişlərin bağlanması sahəsində həmkarlar ittifaqlarının hüquqları qanunvericiliklə müəyyən edilir ( Məşğulluq haqqında, e-qanun.az, 2021).

Həmkarlar ittifaqları bəhs etdiyimiz qanuna uyğun olaraq əmək, sosial, iqtisadi məsələlər barəsində qanunvericilik aktlarının hazırlanmasında fəal surətdə iştirak edir. Həmkarlar ittifaqları Milli Məclisin daimi fəaliyyət göstərən komissiyalarının işində fəal surətdə iştirak edirlər. Onlar işə götürənlərin əmək qanunvericilyinə əməl etməsinə ciddi şəkildə nəzarət edirlər.  Bütün bunlar onların siyasi hakimiyyət orqanları ilə fəal əməkdaşlığının göstəricisidir.

## 6. Kütləvi İnformasiya Vasitələri

Vətəndaş cəmiyyətinin struktur elementlərindən biri də qeyri-dövlət kütləvi informasiya vasitələridir. Kütləvi

informasiya vasitələri yalnız kommunikasiya məhsulu deyil, o həm də müstəqil surətdə maariflənməyə təsit göstərən, müasir texnologiyanın köməyi ilə istər məqsədyönlü şəkildə, istərsə də spontan olaraq vətəndaşlara təsir göstərməyə qabil olan, onlarda dəyər normaları və davranış motivləri formalaşdıran bir informasiya təsir üsuludur.

Müasir dövrdə KİV vətəndaşlarla dövlət və cəmiyyət arasında dialoqu həyata keçirməklə vətəndaş cəmiyyətinin mühüm tərkib hissəsi kimi çıxış edir, habelə vətəndaş cəmiyyətinin publik sahəsi, aşkarlıq vasitəsi kimi nəzərdən keçirilir.

Kütləvi informasiya vasitələrini cəmiyyətdə müxtəlif proseslərin təşkilatçısı və idarə edicisi kimi təsəvvür etmək olar. Bu onlardan vətəndaş cəmiyyəti quruculuğunda və müasir şəraitdə piblik-hüquqi sferanın yaradılmasında istifadə olunmasında öz əksini tapır.

XX əsrin 90-cı illərinində ölkənin siyasi həyatında əhəmiyyətli dəyişikliklər baş verdi— sövet siyasi sistemi demokratik siyasi sistemlə əvəz olundu. Bununla əlaqədar olaraq çoxlu sayda siyasi xarakterli kütləvi informasiya vasitələri meydana gəldi. Baş vermiş dəyişiklikləri həm də onunla izah etmək olar ki, sovet siyasi sistemi demokratik sistemlə əvəz olunduqda hüquqi tənzimləmənin üsul, metod və tipləri də əvəz olundu. Cəmiyyətin həyatında baş verən demokratik dəyişikliklər siyasi partiya və birliklərə siyasi dəyişiklilər və kütlələrin sosiallaşması sahəsinə böyük töhfə verməyə, onların informasiyasının genişlənməsinə və siyasi prosesə cəlb olunmasına imkan yaradır. Çünki demokratik sistemin uğurlu fəaliyyəti üçün vətəndaşlar arasında idarə formalarına, siyasi aparatın tərkib və işinə maraq olması olduqca mühüm əhyəmiyyət daşıyır. Bununla əlaqədar çoxlu sayda demokratik və milli-vətənpərvər istiqamətli nəşrlər meydana çıxdı. Y. Habermas özünün "İctimaiyyətin struktur dəyişikliyi" adlı əsərində yazır:" Vətəndaş cəmiyyətinin təşkilati başlanğıcını yaranan və tərkibinə dini, mədəni birliklərin, müstəqil kütləvi informasiya vasitələrinin, idman təşkilatlarının daxil olduğu və peşə birliklərini, siyasi partiyaları, həmkarlar

ittifaqlarını, alternativ institutları da əhatə edən qeyri-dövlət və qeyri-kommersiya birlikləri təşkil edir" (Habermas, 2016: 26). Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafının hazırkı mərhələsində hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda mühüm rol oynayan kütləvi informasiya vasitələri getdikcə daha artıq əhəmiyyət kəsb edir. Vətəndaş cəmiyyəti bir qayda olaraq fikir plüralizmi və insanların hərtərəfli informasiyaya malik olduqları açıq, demokratik cəmiyyət kim xarakterizə olunur. Buna görə də, vətəndaş cəmiyyətinin əsas elementlərindən biri də vətəndaşların geniş informasiyaya çıxışını təmin edən kütləvi informasiya vasitələri hesab edilir. Öz növbəsində KİV hakimiyyətin və siyasi partiyaların imicinin formalaşması üçün deyil, cəmiyyətin maraqları naminə rəsmi informasiya almalıdır (Budarina, 2015: 85).

Azərbaycan Respublikası Konstitusiyasında hər kəsin fikir və söz azadlığı təsbit olunur (Konstitusiya, 2021:17). Vətəndaşların mass-mediyaya inamı bilavasitə onların müstəqiliyindən və informasiyanın prioritet olmasından aslıdır (Budarina, 2015: 85). Ümummilli lider Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli " Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı KIV-nin azad fəaliyyəti üçün lazımi hüquqi bazanı yaratmış oldu. Bu fərmanın müstəsna əhəmiyyəti KİV üzərində senzuranın ləvğ edilməsindən ibarət idi. Beləlilklə, bu sahədə demokratik məzmunlu dəyişiklilərin baş verməsi üçün perspektivlər açılmış oldu. Kütləvi informasiya vasitələrinin normativ bazasında "Kütləvi informasiya vasitələri haqqında" Qanunun xüsusi əhəmiyyəti var. 1999-cu ildə qəbul edilmiş və sonrakı illər ərzində təkmilləşdirilmiş Qanun ifadə, söz və informasiya azadlığı sahəsində həyata keçirilmiş daxili siyasətin tərkib hissəsi olmuş və dövlət tərəfindən bu sahəyə ardıçıl diqqət göstərilmişdir. İnformaiya və ifadə azadlığının təmin edilməsi istiqamətində başqa bir mühüm addım 2003-cü ildə Azərbaycan jurnalistlərinin birinci konqresində Mətbuat Şurasının yaradılmasını hesab etmək olar.

2005-ci ildə qəbul edilmiş " İnformasiya əldə etmək haqqında" qanunu da vətəndaş cəmiyyətinin inkişafı

istiqamətində önəmli addım hesab etmək olar. Beynəlxalq və yerli ekspetlərin iştirakı ilə hazırlanmış bu qanun hər bir vətəndaşın azad surətdə, heç bir maneə olmadan informaiya əldə etməsinə hüquqi cəhətdən təminat yaradır. Olduqca demokratik xarakter daşıyan bu Qanunun 2-ci maddəsinə görə, təkcə jurnalistlər deyil, hər bir vətəndaş özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir (İnformasiya, e-qanun.az, 2019). Dövlət orqanları və bələdiyyələrin informasiyanı açıqlamaq vəzifəsinin bəhs etdiyimiz Qanunda qeyd olunması hakimiyyət orqanlarının fəaliyyətinə ictimai nəzarətin təmin edilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Vətəndaş cəmiyyəti əsas kommunikator olan KİV vasitəsilə dövlət strukturlarının fəaliyyətinin aşkarlığına nəzarət etmək imkanı əldə etməlidir (Budarina, 2015:85). AR Konstitusiyasının prinsiplərinə Qanunda hərtərəfli şəkildə riayət olunur. Belə ki, fərdi və şəxsi məlumatların əldə edilməsi ilə bağlı məhdudiyyətlərin burada əks olunmasını müsbət bir hal kimi dəyərləndirmək lazımdır.

Ölkədə 2005-ci ildə KİV-nin qeydiyyatı qaydalarının sadələşdirililməsini də vətəndaş cəmiyyəti institutlarının inkişafı üçün əlverişli şəraitin yaradılması baxımından müsbət addım hesab etmək olar. Bu dəyişikliyin nəticəsində KİV sayı nəzərə çarpacaq dərəcədə artdı və fəaliyyətləri də gücləndi. Rəqabət şəraitində bir çox mətbuat orqanlarının tirajı azaldı və bu onların maddi problemlərlə üzləşməsinə səbəb oldu. Yaranmış probleminin həll oluması məqsədilə ölkə rəhbərliyinin təşəbbüsü ilə Mətbuat Şurasında tanınmış mütəxəssislərdən ibarət işçi qrup yaradıldı. İşçi qrup tərəfindən hazırlanmış Konsepsiya 31 iyul 2008-ci il tarixində Prezident İlham Əliyev tərəfindən təsdiq edildi.”Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nda kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədinin vətəndaş cəmiyyəti quruculuğu prosesində onların mühüm rolunu nəzərə almaqla fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin

potensialından səmərəli istifadə kimi məsələlərdən ibarət olduğu qeyd olunur ( Kütləvi informasiya, e-qanun.az, 2008). Təbii ki, sosial-iqtisadi sahədə tərəqqi, demokratiyanın və vətəndaş cəmiyətinin inkişafı ölkədə obyektiv və qərəzsiz məlumatlara ehtiyacı gücləndirir. Hazırkı şəraitdə KİV ölkə daxilində və beynəlxalq aləmdə baş verən dəyişiklikləri təkcə təsvir etməklə kifayətlənmir, həm də onların şərh və təhlilini ictimaiyyətə təqdim etməyə çalışır. Mütəxəssiilər KİV-nin ictimai fikrin formalaşmasında istiqamətverici rolunu birmənalı olaraq qəbul edirlər. Geniş auditoriyaya malik olmaqla KİV cəmiyyətin intellektual-yaradıcı fəaliyyətinə nəzarət edir və onu istiqamətləndirir, habelə ictimai rəyi ifadə edir (Noel-Hoyman, 1996: 186).

KİV cəmiyyətin sosial, siyasi, iqtisadi və mədəni sferalarında mövcud olan problemlər haqqında ictimai rəyin ifadə olunmasında iştirak edir. Nəhayət, KİV vətəndaş cəmiyyətində müxtəlif sosial qruplar arasında dialoq vasitəsi, ictimai əhəmiyyətli məsələlərin müzakirə alətidir.

3 aprel 2009-cu il tarixində Prezident İlham Əliyev tərəfindən Kütəvi İnformasiya Vasitələrinə Dəstək Fondunun yaradılması bu vacib sahəyə dövlət başçısının xüsusi diqqət yetirməsinin bariz təcəssümüdür.

KİV-nın cəmiyyətdə önəmli rolunu nəzərə alan Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti öz diqqət və qayğısının onun inkişaf etdirilməsindən əsirgəmir. Bu sahəyə diqqət təkcə qanunvericilik bazasının təkmilləşdirilməsi və proqramların hazırlanmasında deyil, həmdə madddi və maliyyə məsələlərində özünü göstərir. Mətbuat orqanlarının vergi yükünün azaldılması, qəzet redaksiyalarına kreditlərin ayrılması, jurnalistlərin mükafatlandırılması, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan onların bəzi problemlərinin həlli üçün böyük miqdarda vəsaitin ayrılmasını bu qəbildən olan tədbirlərdən hesab etmək olar.

Müstəqillik illəri ərzində ölkənın ictimai-siyasi və mədəni həyatında əhəmiyyətli rol oynamış, fəaliyyəti cəmiyyətin əksəriyyəti tərəfindən rəğbətlə qarşılanmış və vətəndaş cəmiyyətinin inkişafına öz töhfəsini vermiş qeyri-

dövlət kütləvi informasiya vasitələrindən bunları qeyd etmək olar: qəzet və jurnallar- “Azərbaycan”, “Səs”, “İki sahil”, “525-ci qəzet”, “Dədə Qorqud”, “Ulduz”, “İqtisadiyyat və həyat”, teleradio- “Spase TV”, “İTV” , “İctimai radio”, saytlar- “aktual.az”, “olkə.az”, “haqqın.az”, “Qafqaz.info” və s.

## Nəticə

Sovet imperiyasının süqutundan sonra Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının təşəkkülü müstəqillik uğrunda mübarizə və Dağlıq Qarabağ münaqişəsinin başlandığı dövrə təsadüf edir. Müstəqilliyin ilk illərindən dövlət vətəndaşların ictimai birliklərdə iştirakını və özünütəşkil formalarını dəstəkləmək üçün təşkilati və infrastruktur şəraitini təmin etməyə çalışır, bu sahədə qanunvericilik bazasını formalaşdırır və təkmilləşdirirdi. Azərbayca Respublikası Konstitusiyasında və bir sira hüquqi-normativ sənədlərdə vətəndaşların ictimai-siyasi həyatda fəal mövqeyinin, siyasi iştirakçılıq və sosiallaşmanın inkişafına kömək edən müddəaların əks olunması ölkədə vətəndaş cəmiyyətinin inkişafı və demokratik azadlıqların təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Müasir Azərbaycanda vətəndaş cəmiyyəti strukturlarının dövlət tərəfindən daha artıq dəstəklənməsi onların cəmiyyətə daha artıq inteqrasiya olunması, hüquqi və sosial dövlətin qurulmasında yaxından iştirak etmələrinin təmin olunması baxımından əhəmiyyətlidir. Dövlət tərəfindən vətəndaş cəmiyyəti institutlarının himayə olunması bir qayda olaraq qanunilik, əməkdaşlıq, şəffaflıq, qarşılıqlı razılıq və cavabdehlik prinsiplərinə əsaslanır.

Ölkədə artıq inkişaf etməkdə olan vətəndaş cəmiyyəti institutları siyasi- hüquqi və vətəndaş mədəniyyətinin formalaşması, insan hüquq və azadlıqlarının təmin oluması, söz, fikir və ifadə azadlığının genişlənməsində müstəsna rola və yerə malikdir.

## İstifadə olunmuş mənbələr

ALLAHYAROVA, T. və Məmmədov, F (2010). Azərbaycanda siyasi partiyalar: seçkidən seçkiyə. Bakı: CBS-PP MMC.

Azərbaycan Respublikasının Konstitusiyası (2021), Bakı: “Hüquq Yayın Evi”.

HÜSEYNOV, R (2017). Hüquqi dövlət və vətəndaş cəmiyyəti. Bakı: “ Elm və Təhsil”.

NOEL-NOYMAN, E. (1996). Obşestvennoe mnenie. Otkrıtie spirali molçaniya. Moskva: Proqress-akademiya.

PRASOLOV, V.İ. (2011). Роль свободных профсоюз в политической системе современной России ( avtoreferat), Moskva: “Reqlet”.

XABERMAS Y (2016). Strukturnoe izmenenie publiçnoy sferı. İssledobvaniya otnositelno kateqorii burjuaznoqo obşestva. Moskva: Ves mir.

BARAMİDZE, S.M. (2013). Rol politiçeskix partiy Rossii v qrajdanskom obşestve. “Vestnik Udmurtskoqo Universiteta” jurnalı, 3:116-119.

BUDARİNA, K. A. (2015). Rol mass-media kak osnovnoqo komminikatora mejdu qrajdanskim obshestvom i qosudarstvennımi strukturami: Srednerusskiy vestnik obşestvennıx nauk. Seriya politoloqiya jurnalı 10 (3): 82-88.

ZAVYALOV V. T. (2011). Osobennosti vliyanie partiynoy sistemı na razvitie qrajdanskoqo obşestva v Rossii: Qumanitarnıe nauki. Vestnik Finansoqo Universiteta jurnalı 3: 82-88.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə, http://www.e-qanun.az/framework/4392 (2001).

Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası, http://www.e-qanun.az/framework/15193 (2008).

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası, http://www.e-qanun.az/framework/13653 (2020) .

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası. http://www.cssn.gov.az (2022) .

Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikası Qanunu. http://www.e-qanun.az/framework/7649 (2022).

Həmkarlar İttifaqları haqqında Azərbaycan Respublikası Qanunu, http://www.e-qanun.az/framework/8987 (2020).

Qeyri-Hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikası Qanunu, http://www.e-qanun.az/framework/511, 2020.

İnformasiya əldə etmək haqqında Azərbayac Respublikası Qanunu, http://www.e-qanun.az/framework/11142 (2019).

Məşğulluq haqqında Azərbaycan Respublikası Qanun, http://www.e-qanun.az/framework/39846 (2021).

Siyasi Partiyalar haqqında Azərbaycan Respublikası Qanunu, http://www.e-qanun.az/framework/7090 (2020) .